DA MIHI ANIMAS

Mons. Vladimír Fekete SDB
Vescovo titolare di Municipa
Prefetto Apostolico in Azerbaigian

"12" fevral 2024-cü il
Bakı şəhəri
№ 17/APO/24

**Zati-Aliləri**
**Azərbaycan Respublikasının Prezidenti**
**Cənab İlham Heydər oğlu Əliyevə**

***Zati-Aliləri,***
***Möhtərəm cənab Prezident,***

İcazə verin Sizi Azərbaycan katolikləri adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə növbədənkənar seçkilərdə inamlı qələbəniz münasibətilə ürəkdən təbrik edim.

Öz milli adət-ənənələrinə və siyasi mədəniyyətinə sadiq, ölkəsinin müstəqilliyini müqəddəs sayan Azərbaycan xalqı Sizə - suverenliyin, milli təhlükəsizliyin və xalq birliyinin təmin edilməsi, ərazi bütövlüyünün bərpası, dinamik dövlət quruculuğu və iqtisadi inkişaf kimi ölkə və cəmiyyət qarşısında duran əsas strateji vəzifələri ardıcıl və yüksək səmərəliliklə həll edən müdrik və uzaqgörən rəhbərə bir daha etimad göstərmişdir.

Sizin rəhbərliyinizlə Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı, ölkənin etnik, dini, dil və mədəni müxtəlifliyinin qorunub saxlanması və artırılması dövlət siyasəti səviyyəsində həyata keçirildiyi müasir, sürətlə inkişaf edən ölkə nümunəsinə çevrilib.

Azərbaycanın sivilizasiyalararası və dinlərarası dialoq sahəsində rolu və bu sahədə əldə etdiyi nailiyyətləri haqlı olaraq beynəlxalq aləmdə ən yüksək qiymətə layiq görülüb. Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında yüksək səviyyəli qarşılıqlı etimad və əməkdaşlıq xüsusi sevinc və qürur hissi yaradır və bu Müqəddəs Ata Fransisk və Katolik Kilsəsinin digər iyerarxları tərəfindən dəfələrlə qeyd olunub.

Katolik xristian icması Azərbaycanda Katolik Kilsəsinin ehtiyaclarına göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığını bildirir, Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını əmin edir ki biz, bundan sonra da, Azərbaycan cəmiyyətində dinlərarası sülhün, çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının dini-mənəvi dəyərlərinin qorunub saxlanması, təşviqi və möhkəmləndirilməsi, xalq birliyinin təmin edilməsi işinə öz imkanlarımız daxilində töhfəmizi verəcəyik.

Mammad Araz St. 69b/1, AZ 1069 Baku, Azerbaijan Republic
Tel.: (+994 12) 5622255, E-mail: bishop@catholic.az, www.catholic.az